

**Yazıçı-publisist Mustafa Çəmənlinin imzası oxuculara yaxşı tanışdır. O, "Xallı gürzə", "Fred Asif", "Mənim dünyamın adamları", "İtirilmiş səs", "Səs qərib olmur", "Oxu, gözəl", "Muğam dünyasının Xanı", "Burdan bir atlı keçdi", "Leyli və Məcnun" - 100 il səhnədə" və s. bədii və publisistik kitabların müəllifidir. Tanınmış yazıçının yeni bir kitabı çapa hazırlanır. Mövzu əhatəsinə görə "Məşhur kişilər və xanımları" kitabı respublikamızda ilk cəhd kimi dəyərləndirilməlidir. Maraq doğuracağını nəzərə alaraq həmin kitabdan müəyyən hissələri jurnalımızın 2009-cu il 11-ci sayından başlayaraq oxucularımızın diqqətinə veririk.**

# Atabəy Məhəmməd Cahan Pəhləvan və İnanc xatun

## "Məşhur kişilər və xanımları" kitabından

Cahan Pəhləvan atası Şəmsəddin Eldənizin ölüm xəbərini Həmədanda eşitmişdi. O, vaxt itirmədən Naxçıvana gəldi, həm atasının yasını vermək, həm də dövləti başsız qoymamaq üçün. Cahan Pəhləvanın düşmənləri onun Həmədanda olmamasından yararlanıb Sultan Arslan şahı Azərbaycana hücum etməyə təhrik eləyərdilər. Əslində sultanı ögey qardaşına qarşı qızışdıran bu əmirlər Cahan Pəhləvanın özündən çox atası Eldənizin - Böyük atabəyin rəqibləriydilər.

Onlar Eldənizin yoxluğundan istifadə edib oğlunu yolları üstündən götürmək istəyirdilər. Amma onlar vacib məsələni - Cahan Pəhləvanın kimdən dərs aldığını unutmuşdular. Necə deyərlər, Cahan Pəhləvan atasının balasıydı. Nə şücaətdə, nə siyasətdə ondan geri qalmırdı. Bəlkə də, əksinə, atalığı Şəmsəddin Eldənizin sağlığında cınqırını da çıxarmayan Sultan Arslan şah əmirlərinin fitnəsinə uyub, Azərbaycanın üstünə qoşun yeritdi. Anası Mömünə xatun da sağ deyildi ki, onu qınasın, utandırsın. Ancaq sultan qoşunu Zəncana girəndə Arslan şah xəstələndi. Bəlkə bu da Allahın işiydi. Sultanın xəstəliyi gün- gündən şiddətlənirdi. Artıq ona elə gəlirdi ki, həyatının sonu çatıb. Bəlkə elə buna görə əmr etdi ki, onu sultanlığın paytaxtı Həmədana aparsınlar.

Sultan, beləcə, geri dönür, amma xəstəlikdən ölməyib sağalır. O qədər şadlanır ki, hətta şəhərin rəisi Əmir Seyid Fəxrəddinin qızıyla evlənir.

Cahan Pəhləvan qardaşının hücum xəbərini eşidib ona ürəyində kin bəsləyirdi. Sultan da elə onun kinindən qorxurdu. Axı Cahan Pəhləvan atasının tökdüklərini nəinki yığmışdı, hələ bir az da üstünə qoymuşdu. Sultan Cahan Pəhləvanın könlünü almaq üçün onu saraya dəvət etmişdi. O da bu dəvəti qəbul etmişdi, amma ürəyindəki ürəyində idi. Sultan Arslan şahı aradan götürmək fikrindəydi. Yoxsa gec-tez toqquşacaqdılar.

Rəvayətə görə, Cahan Pəhləvan çox keçmir ki, Qutluq adlı birisinin əli ilə sultanı aradan götürür (bəzi tarixi mənbələrə görə sultan hamamda olanda, qatil ona zəhərlənmiş şərbət veribmiş).

Cahan Pəhləvan Sultan Arslan şahın yeddi yaşlı oğlu III Toğrulu sultan taxtına oturdur, özü də onun atabəyi olur və ölkəni sərbəst şəkildə idarə etməyə başlayır. Cahan Pəhləvan daşıdığı ada layiq idi. Cəsarətli, qüdrətli, qətiyyətli, dövlət işində səriştəli, tələbkar...

Cahan Pəhləvanın həyatında üç xanım olub. Bu xanımlardan biri Rey hakimi İnancın qızı İnanc xatun idi. Əslində onların bu izdivacı qarşılıqlı məhəbbətin nəticəsi deyildi, siyasətin nəticəsi idi. Vaxtilə Rey hakimi bir neçə əmirlə birləşib Atabəy Eldənizə qarşı çıxmışdı. Eldəniz də 1161-ci ildə Həmədan yaxınlığında şahzadə Mahmud şah ibn Məhəmmədi məğlub edib, sonra Reyi tutmuşdu və oranı iqta kimi oğlu Cahan Pəhləvana vermişdi. Rey hakimi İnanc əlacsız qalıb Sultan Arslan şahdan vassal asılılığı qəbul etmişdi.

Sonra Atabəy Eldənizlə barışıq üçün sevimli qızı İnanc xatunu Cahan Pəhləvana ərə vermişdi. Cahan Pəhləvanın İnanc xatundan Qutluq-İnanc Mahmud və Əmir Əmiran Ömər adlı iki oğlu olmuşdu. Tarixi mənbələrdə göstərilir ki, Cahan Pəhləvan bu iki oğlunu daha çox sevirmiş. İki oğul anası olan İnanc xatunun Atabəylər sarayında yeri, hökmü vardı. Özü də ədalı, hikkəli bir xanım idi. Onun özünə xas təbiəti əsrlərin arxasından belə görünür. O, əri Cahan Pəhləvanın zamanında öz hikkəsini yeridə bilməsə də, Qızıl Arslanın zamanında əsl sifətini göstərdi.

Cahan Pəhləvanın ikinci arvadı türk qızı Qüteybə xatun idi. Cahan Pəhləvanın ondan Əbu Bəkir adlı oğlu olmuşdu. Qüteybə xatun da ona ağıllı və qətiyyətli, tədbirli bir xanım olmuşdu. Cahan Pəhləvanın üçüncü arvadı Zahidə xatun isə kəniz olmuşdur. Görünür onun gözəlliyi Cahan Pəhləvanı özünə məftun etmiş, o da Zahidəni alaraq kənizlikdən azad etmişdi. Cahan Pəhləvanın Zahidə xatundan Özbək adlı oğlu, Cəlaliyyə və Fulana adlı qızları olmuşdur. Zahidə xatun tədbirli, qətiyyətli xanım olmuşdur. Təbrizin hakimi kimi şəhəri mühasirəyə alan gürcülərə pul, mal-dövlət verib əhalini qarətdən xilas etmişdir.

Atabəylər dövlətinin ən önəmli simalarından olan Cahan Pəhləvan ailəcanlı bir şəxs imiş. O, uzaqgörən bir adam kimi hər bir xanımının, övladlarının xarakterini, üstün və zəif cəhətlərini hər kəsdən yaxşı bilirmiş. O, qardaşı Qızıl Arslanın da bir sərkərdə, dövlət adamı kimi gücünü, qüdrətini vaxtında qiymətləndirə bilmişdir.

Cahan Pəhləvan üçün dövlətin sabahı hər şeydən öndə olmuşdur. Məhz atasının banisi olduğu Atabəylər dövlətinin sabahı naminə öz övladlarından birini deyil, qardaşı Qızıl Arslanı varis elan etmişdi.

O, əcəldən macal tapıb, övladlarını da unutmamışdı. Azərbaycanı və Arranı idarə etməyi Qüteybə xatundan olan oğlu Əbu Bəkirə, Reyi, İsfahanı, İraqın qalan hissəsini İnanc Mahmudla Əmir Əmiran Ömərə, Həmədanı isə Zahidə xatundan olan oğlu Özbəkə tapşırmışdı.

Atabəylər dövlətinin ən şanlı hökmdarı Cahan Pəhləvan 1186-cı ilin baharında əbədiyyətə qovuşmuşdu. Onun ölümü tarixi kitablara belə düşdü: "İslamın padşahı, qüdrətli hökmdarı, dahi atabəy, Əcəmin xaqanı Şəms əd-Dünya vəd-Din Nüsrət əl-İslam və -l-müslimin Əbu Cəfər Məhəmməd Cahan Pəhləvan ibn İldəniz İl-şah" (Z.Bünyadov. "Azərbaycan Atabəylər dövləti", s.83.).

Tarixi mənbələrdə Cahan Pəhləvan xoş xasiyyətli insan, ədalətli, müdrik və səbirli hakim kimi yad edilir. Əlbəttə, bəzi hallarda qəddarlığı da unudulmayıb. Atabəy Cahan Pəhləvanın qoyub getdiyi mirasının sayı da unudulmamışdı: "Onun 500-dən artıq şəxsi məmlükü, 70 min atı, qatırı və dəvəsi vardı (yenə orada, s.83).

Deyirlər Atabəy Cahan Pəhləvan vəfatından az əvvəl Reyə gəlir. Atabəy çavuşların səs-küyünü eşidib yanındakı əyandan nə baş verdiyini soruşur. Əyan cavab verir ki, bəs səs-küy sizin Reydəki canişininiz və məmlükünüz Səracəddin Qaymaza görədir. Cahan Pəhləvan deyir: - Qaymaz belə mərtəbəyə çıxıb ki, şəxsi çavuşlar saxlayır?- sözünə ara verib əyandan soruşur ki, "Mənim qullarım və onlara verdiyim mövqe haqqında nə deyə bilərsən?"

Əyan cavab verir:- Qoy böyük Atabəyin həyatı əbədi olsun. Sən öz qullarını elə yüksəkliklərə qaldırmısan ki, səndən sonra onlar sənin övladlarının heç birinə itaət etməyəcək və heç birisinə baş əyməyəcək. Həmin qulların ömürləri nə qədər davam edərsə, bir o qədər də İraq nə sülh, nə sakitlik görəcəkdir" (Göstərilən əsər).

Acı həqiqəti başqasının dilindən eşidən Cahan Pəhləvanın gözləri yaşarır və əyana:- "Sən haqlısan!"- söyləyir.

Doğrudan da, Cahan Pəhləvanın ölümündən sonra təkcə onun qulları yox, atabir, anaayrı oğlanları da bir-birinə qarşı vuruşdular. Xalq da bu çəkişmələrdən

acılar yaşadı.

Cahan Pəhləvanın ölüm xəbərini xalqdan üç ay gizli saxladılar. Başda Cahan Pəhləvanın arvadı İnac xatun olmaqla məşvərət edirdilər ki, atabəyi kim əvəz etsin? Lakin Cahan Pəhləvana sadiq olan əmirlər onun qardaşı Qızıl Arslanı müdafiə etdilər. Beləliklə, Qızıl Arslan Osman Həmədana gəlib dövləti idarə etməyə başladı. Sultan III Toğrul ona qarşı çıxmağa cəsarət etmədi. İnac xatunun isə arzuları gözündə qalır. III Toğrul Qızıl Arslanı sarayında qəbul edib onu ölkəyə atabəy təyin edir. Görüş zamanı Sultanın məmlükü Qaragöz Qızıl Arslanı öldürmək fikrinə düşür, lakin sultanın işarəsi ilə o, bu qətildən vaz keçir. Amma sonra Qızıl Arslan Qaragözün bu niyyətindən xəbər tutur və onun gözlərini oydurur. Bu yerdə yaxşı deyiblər ki, sən saydığını say, gör fələk nə sayır.

Cahan Pəhləvanın xanımı İnanc xatunun hikkələnməsinə isə incə bir səbəb vardı. O, Qızıl Arslanın mövqeyinin möhkəmlənməsindən, günüsü Qüteybə xatunun oğlu Əbu Bəkirin özünün iki oğlundan daha yüksək zirvəyə çatmasından çox narazı qalmışdı. İnanc xatun Cahan Pəhləvanın sərkərdəsi Əmir Seyfəddinə yazırdı:- Siz necə rəva bilirsiniz ki, kənizin oğlu rütbəcə mənim oğlumdan yüksək vəzifə tutsun. Məndə o qədər pul, xəzinə, dinar və dirhəm var ki, sizi illər boyu təmin edə bilərəm. Mən istəyirəm ki, siz oğlanlarımı atlara mindirib mənə çatdırasınız" (göstərilən əsər).

Bu sətirlərdən əsrlərin arxasından boylanan İnanc xatunun hikkəsi adamı qarsır. Onun Cahan Pəhləvana sevgisi, məhəbbəti, əməlinə, ruhuna sədaqəti hiss olunmur. Ərinin ölümündən dərhal sonra hikkəsi üzə çıxır.

Cahan Pəhləvanın varisi Qızıl Arslan İnanc xatunun necə hiyləgər və məkirli qadın olduğunu gözəl bilirdi. O, İnanc xatunun oğlanları Qutluq-İnanc Mahmudu və Əmir Əmiran Öməri öz tərəfinə çəkmək xatirinə hətta onunla evlənmişdi. Onların arasındakı bu nigahda sevgidən söhbət belə gedə bilməzdi. Məhəbbət olmayan yerdə ot bitməz. Qızıl Arslan öz içində İnanc xatuna daim şübhə ilə yanaşırdı. Və o, şübhəsində yanılmamışdı. İnanc xatun əmisi Qızıl Arslana qarşı çıxdığına görə qandallanıb Naxçıvan yaxınlığındakı Qəhrəm qalasında dustaq olan III Toğrulu hakimiyyətə qaytarmaq, Qızıl Arslanı isə aradan götürmək fikrinə düşmüşdü. Atalar yaxşı deyib ki, ağacı öz içindən qurd yeyər. Nəhayət, İnanc xatunun hikkəsi Qızıl Arslana sui-qəsdlə nəticələnir. 21.09.1191-ci ildə onu öz yatağında öldürürlər.

Qızıl Arslan Atabəylər dövlətinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biri idi. Qızıl Arslan ona qarşı qoşun çəkmiş ögey qardaşı oğlu III Toğrulu məğlub edib sultan taxtına oturmuşdu. Toğrul əlində qılınc, əynində kəfən Bağdada gedib xəlifənin qəbuluna düşmək istəmişdi, amma xəlifə bir vaxt onun qoşununu məğlub etdiyi üçün onu qəbul etməmişdi, əmisi Qızıl Arslan da ona qarşı çıxdığına görə Toğrulu bağışlamamışdı.

Qızıl Arslanın meyiti ortada qalmışdı. Sui- qəsddə iştirak edən İnanc xatun da gözə dəymirdi. Cahan Pəhləvanın dul qalmış arvadı Qüteybə xatun fürsəti əldən qaçırmadı. O, Qızıl Arslanın barmağında sultan ünvanı və nişanı olan üzüyünü çıxarıb oğlu Əbu Bəkirə verdi: -"Get, Azərbaycan və Arran hakimliyini öz əlinə al"-dedi.

Elə həmin gecə Əbu Bəkir Azərbaycana yola düşür. O, nəhayət Əlincə qalasına gəlir. Burada da qan özünü göstərir. Əlincə qalası bütün xəzinəsi ilə birlikdə Cahan Pəhləvanın digər arvadı Zahidə xatunun ixtiyarında idi. Əbu Bəkir analığının göz yaşına baxmayıb xəzinəni ələ keçirir və Azərbaycanı və Arranı tutaraq babasının və atası Cahan Pəhləvanın taxtında oturur.

III Toğrul iki il qalada məhbus qaldıqdan sonra 1192-ci ilin baharında azadlığa çıxır. Hakimiyyət yolunda bir neçə vuruşmada çarpışır. Toğrul İnanc xatunun oğlu Qutluq- İnanc Mahmudla da döyüşüb onu məğlub edir.

Çapar İnanc xatunun III Toğrula yazdığı bir məktubu ona çatdırır. O yazırdı: "Mən heç zaman sənə meyl göstərməkdən çəkinməmişəm və sənin yaxın və uzaq düşmənlərinin düşməni olmuşam. İndi Allah səni əcdadının mülkiyyətində xaqan tikdikdən sonra, mən də sənin qulluqçularından və kənizlərindən biriyəm. Mənim bol xəzinəm və pulum var, sən məni qəbul etsən, kənizlərindən biri kimi sənə xidmət göstərərəm, bu şərtlə ki, kəbin kəsməyə razılıq barədə iltizam verəsən. Mən Həmədana sənin qulluğuna gələrəm və tədricən xəzinəni və pulları sənə verərəm"(göstərilən əsər).

III Toğrul İnanc xatunun təklifini qəbul eləyir. Sən demə İnanc xatunun niyyəti başqaymış. Əqrəb sancmasa yaşaya bilməz axı. Ziyafətdə qulluqçulardan biri III Toğrula pıçıldayır ki, İnanc xatun şərabın içinə zəhər qatıb. Toğrul məqamında əlindəki badəni İnanc xatuna verir ki, iç! İnanc xatun içmək istəməyəndə onu məcbur edir. İnanc xatun zəhərli şərbəti başına çəkir və oradaca ölür. Beləcə, su sənəyi suda sınır. Qəlbi, zehni kinlə, hikkə, qəzəblə dolu olan İnanc xatunun sonu belə faciəli sonluqla qurtarır (Görkəmli tarixi romanlar müəllifi M.S.Ordubadi bu qadının surətini "Qılınc və Qələm" romanında Qətibə adı ilə çox gözəl yaradıb).

Amma bu hiyləgər qadının əkdikləri göyərirdi. Onun oğlanları Qutluq-İnanc Mahmudla Əmir Əmiran Ömər Təbrizə hücum etmişdilər. 1192-ci ildə Əbu Bəkir Təbriz yaxınlığında qardaşlarının qoşununu darmadağın etdi. Bundan sonra Qutluq-İnanc Mahmud Xarəzmşah Təkəşin, Əmir Əmiran Ömər isə Şirvanşah I Axstanın yanına qaçdı.

Taleyin qəribə işdəkləri var. III Toğrul az qüvvə ilə Rey ətrafında xarəzmilərlə döyüşürmüş. Qabaq dəstədə vuruşan xarəzmilərə Qutluq-İnanc Mahmud başçılıq edirmiş. Döyüşdə düşmən oxu Toğrulun gözünə dəyir və o, atdan yıxılır. Bu zaman Toğrul siyirmə qılınc ona yaxınlaşan Mahmuda deyir:- Ey Mahmud, məni yerdən qaldır, buradan uzaqlaşaq. Bu həm sənin, həm də mənim üçün yaxşı olar.

Mahmudun damarlarında həm də İnanc xatunun qanı axırdı. Onu III Toğrulla birləşdirən qohumluq teli də saxlamır, uf demədən onun başını kəsib Xarəzmşaha aparır. O da Toğrulun kəsilmiş başını Bağdada göndərir. Bu xidmətin müqabilində Xarəzmşah Təkəş qəsb etdiyi İsfahanı Qutluq-İnanc Mahmuda verir və onu İraqın baş əmiri təyin edir.

Deyirlər qisas qiyamətə qalmaz. Toğrulun qızı Xarəzmşahın oğlu Yunisə ərə getmişdi. O, atasının intiqamını almaq üçün əlindən gələni edirdi. Toğrulun qızının hiyləsi ilə sülh müqaviləsi bağlamaq adıyla Mahmudun sarayına gələn Xarəzmşahın adamları onu öldürmüşdülər.

Əmir Əmiran Öməri isə Şirvanşah I Axsitan nəinki yaxşı qarşılamışdı, hətta qızını ona ərə vermişdi. Bu qohumluq da bir siyasət idi. Şirvanşahın gizli məramı vardı. O, Atabəylər sülaləsindəki çəkişmələrə kürəkəninin vasitəsilə təkan vermək istəyirdi. O dövrdə hər kəs at belində öz məramı, həqiqəti uğrunda vuruşurdu.

Hakimiyyət o qədər şirin, cəzbedici idi ki, qardaş qardaşın üstünə qoşun çəkirdi. Əmir Əmiran Ömər o zaman Gürcüstan hakimi çariça Tamaradan belə kömək alaraq qardaşı Əbu Bəkirə qarşı çıxmışdı, Gəncəni alıb taxtda oturmuşdu. Amma Əmir Əmiran Gəncədə cəmi 22 gün taxtda otura bilmişdi.

İnanc xatunun vaxtilə oğlanlarının qəlbində yandırdığı kin tonqalı nəticədə onların faciəsi ilə sona yetir.

Cahan Pəhləvanın Qüteybə xatundan olan oğlu Atabəy Nüsrətəddin Əbu Bəkr atası şücaətdə olmasa da, hər halda, iyirmi iki il hakimiyyət başında otura bilir. O, hakimiyyəti dövründə alimlərə, şairlərə hörmət etmiş, İraqda, Azərbaycanda mədrəsələr, məscidlər tikdirmişdir.

Onun həyatının bir qismi eyş-işrətdə, bir qismi də döyüşlərdə, qovğalarda keçdi. O öz ölkəsinə gürcülərin hücumlarının qarşısını almaq üçün, müsəlmanların etirazına baxmayaraq, gürcü çariçanın qızına da evlənmişdi.

Əbu Bəkr 1211-ci ildə dünyasını dəyişir. Onun yerini Müzəffərəddin Özbək tutur. Onun hakimiyyəti dövründə monqollar əzəmətli Xarəzmşahlar dövlətini çökdürdü, sultan Ələddin Məhəmmədin övladları Cəlaləddin Manqburnu və Qiyasəddin Pir Şah İraqa, Azərbaycana hücum etdilər. Atabəy Özbək Pir Şaha qarşı çıxa bilmədi, onunla sülh bağladı (1224) və bacısı Cəlaliyyəni ona ərə verib qohum oldu.

Cəlaliyyə Azərbaycan Atabəylərinin şəxsi mülkü sayılan Naxçıvanın hakimi olmuşdur. Cəlaliyyənin sarayında xidmət edənlər əsasən qadınlar idi. Qiyasəddin Pir Şah öləndən sonra Cəlaliyyəni onun qardaşı Cəlaləddin aldı.Əlbəttə, bu izdivac da siyasi nigah idi. Cəlaliyyənin hakimiyyətini, mal-mülkünü qorumaq üçün başqa yolu yox idi.

Atabəy Özbəyin arvadı, İraqın sonuncu səlcuq sultanı III Toğrulun qızı Məlikə idi. Əslində dövləti bu qadın idarə edirdi. Cəlaləddin Təbrizi tutanda Atabəy Özbək əvvəl Gəncəyə, sonra Əlincəyə qaçmışdı. Özbəkin arvadı Məlikə xatun Cəlaləddindən xahiş eləmişdi ki, Xoy şəhərini ona bağışlasın. Cəlaləddin onun arzusunu yerinə yetirmişdi.

Sonra isə şəriət qanununu pozaraq 1228-ci ildə Məlikə xatunla evlənmişdi. Bu xəbər Özbəkə çatanda soruşur ki, bu Məlikənin razılığı ilə olub, yoxsa əksinə? Cavab verirlər ki, bu iş xanımın öz arzusuyla baş tutub. Bu xəbərdən sonra Atabəy Özbək xəstələnir və bir neçə gündən sonra ölür. Onun ölümü ilə də Atabəylər dövləti süqut edir.

Məsəl var, oddan kül törəyər. Oğlanlarının heç biri Məhəmməd Cahan Pəhləvanın şərəfli adını doğrultmadı. Bəlkə də bu acınacaqlı sonluğun bir nəticəsi də o zamankı ictimai-siyasi olaylar idi...